*“Metafizika” Journal*
***2022, Vol 5, Issue 3, Serial 19, pp. 161-165***

# RESENZİYA

**İbrahim Bağırov***

## “İrfan və fəlsəfə perspektivindən kamil insan nəzəriyyəsi” kitabı haqqında

**Kitabın adı:**

نظریه انسان کامل از دیدگاه عرفان و فلسفه

**Müəllif:** Ələddin Məlikov

**Kitabın dili:** Fars

**Nəşr ili:** 2016

**Səhifəsi:** 360

**Nəşriyyat:** Beynəlxalq əl-Mustafa Universiteti nəşriyyatı

**Ölkə:** İran

**ISBN** 978-600-429-028-9

**OCLC Number:** 1285507865

**Worldcat:** http://www.worldcat.org/oclc/1285507865




*“İrfan və fəlsəfə perspektivindən kamil insan nəzəriyyəsi”* (Nəzəriyyəye ensane kamel əz didgahe erfan və fəlsəfə) kitabında fəlsəfədə, xüsusilə də irfanda ən önəmli məsələlərdən biri olan “kamil-insan konsepsiyası” İbn Ərəbi və Sədrəddin Şirazinin nəzəri irfan və transendental hikmət düşüncəsi baxımından təhlil edilir. Təsəvvüf tarixinin xüsusi əhəmiyyət kəsb edən problemlərinin başında gələn “kamil insan konsepsiyası” ontoloji və epistemoloji problemlərlə bağlı olmaqdan ziyadə,

* AMEA Şərqşünaslıq İnstitutunun dissertantı və elmi işçisi, Bakı, Azərbaycan
E-mail: ibbaghiroff@yahoo.com
https://orcid.org/0000-0002-2976-2119

həm də dini-əxlaqi tərəfləri ehtiva edən dərin zehni fəaliyyət və ruhani təcrübənin əsəri olaraq meydana gəlmişdir. İslam mistik düşüncə tarixində bu anlayış İbn Ərəbinin adı ilə xarakterizə olunur. Lakin bu ideyanın kökləri daha qədim dövrlərədək gedir. “Mikrokosmos” və “makrokosmos” düşüncəsi ilə bağlı olaraq insanlar aləmlə insan arasında müəyyən bir münasibətin olduğuna inanmış, birində mövcud olan xüsusiyyətlərin ən azından bir qisminin digərində də olduğu qənaətinə gəliblər. Yaxın zamanlara qədər davam edən bəşəri fikir tarixini analiz etdikdə “mikrokosmos insan” təsəvvürünə rast gəlmək mümkündür. Hətta bu düşüncənin qədim Mesopotamiya və Misir mədəniyyətlərində də olduğu fikri mövcuddur. Manilikdəki “İnsani-qədim”, məzdəkilikdəki “Qayomard”, yəhudilərin Kabbalasındakı “Adam Qadmon” bir anlamda bu ideyanı təmsil edir [Mehmet, S.A. (2000). İnsan-i Kamil. İstanbul: Diyanet İslam Ansiklopedisi, s.330]. Uzaq Şərq mədəniyyətlərində də bənzər elementlərə rast gəlsək də təbii ki bunları İslam düşüncəsindəki “kamil-insan” təsəvvürü ilə eyniləşdirə bilmərik. Nəzəri irfanda, daha da konkretləşdirsək, İbn Ərəbinin düşüncəsində “kamil insan” haqqın bütün adlarının təcəllisidir. Kamala çatmış insan üçün varlıq aləminin bütün imkanları səfərbərdir. Hətta ona görə kamil insan yaradılışın mükəmməl modelidir. “Kamil insan” olmaq potensialı hər kəsdə mövcud olsa da, yalnız peyğəmbər və övliyalarda aktuallıq qazanmışdır (feiliyyətə çatmışdır). Aralarında bənzərliklər olsa da Sədrəddin Şirazinin “kamil insan” təsəvvürü aləmlə insan arasındakı zati əlaqəyə işarə edir. S.Şirazi düşüncəsində insan, maddi və mənəvi və ya metafizik aləm arasında əlaqələndirici funksiyasına malikdir. Ona görə insan Tanrıdan maddəyə, maddədən də Tanrıya doğru olan hərəkətində varlıq dairəsinin “eniş” və “yüksəliş” qövslərindəki bütün varlıq aləmlərini qət edir və onları özündə ehtiva edir. Digərlərindən fərqli olaraq filosof bunu varlığın əsilliyi, təşkikiliyi və cövhəri hərəkət nəzəriyyələri ilə fəlsəfi dillə əsaslandırmağa çalışır [Malikov, A. (2019). İslam düşüncəsində kamil insan konsepsiyasının aktuallığı. Din araşdırmaları, 2 (3), 253-266, s.253]. Bu məqam bəhs etdiyimiz kitabda müəllif Ələddin Məlikov tərəfindən də vurğulanır:

> *İbn Ərəbinin “kamil insan” haqqında olan fikirləri həm həcm baxımından çox geniş, həm də irfani-mistik xarakteri baxımından çox dəyərlidir. O, İslam dünyasında kamil insan problemini araşdıran və onunla bağlı bir çox mühüm məsələləri həll edən ilk şəxsdir. Lakin o, bu mövzularla bağlı daha çox özünün mistik təcrübəsinə əsaslanmış və dəqiq fəlsəfi təhlillər və əsaslandırmalar aparmamışdır. Bu səbəbdən fəlsəfə tarixində çoxlarının onun fikirlərinə müsbət münasibətinə baxmayaraq, onları əqli nəticələrlə əsaslandırmadığa görə bu fikirlərə*

*skeptik yanaşmışlar. Bəzən isə onun fikirlərinə ciddi etirazlar da edilmişdir.*

*...Ancaq S.Şirazinin kamil insan haqqında dedikləri həcm baxımından İbn Ərəbi ilə müqayisədə xeyli az olsa da daha yüksək qiymətləndirilməlidir. Çünki o, İbn Ərəbidən sonra onun şəxsi təcrübə və ya şühud yolu ilə əldə etdiyi mətləbləri fəlsəfəsinin prinsiplərinin imkan verdiyi həddə rasionallaşdıra bildi və demək olar ki, irfan, İslam dünyasında Şirazi fəlsəfəsi sayəsində öz yerini tapdı* [Malikov, A. (2016). Nazariyyeye ensane kamil ez didgahe erfan və falsafe. Qum: Markaz Beynalmilali Tarcome ve Neshr Almustafa, s.316-317].

Kamil insan konsepsiyasının mənası, mahiyyəti, mistik və fəlsəfi sistemlərdəki təzahürünü görmək və ortaq və fərqli cəhətlərə sahib olduğunu aydınlaşdırmaq üçün haqqında danışdığımız əsər kifayət qədər önəmli bir qaynaq hesab edilə bilər.

Müəllifin fars dilində qələmə aldığı əsər 2016-cı ildə Əl-Mustafa beynəlxalq tərcümə və nəşr mərkəzi tərəfindən nəşr edilmişdir. Ümumilikdə üç yüz altımış səhifədən ibarət olan kitab dörd fəsildən ibarətdir. "Külliyyat" adlandırılan birinci fəsildə kitabın ortaya qoyduğu problemin ümumi çərçivəsi müəyyən edilir. Bu fəslin birinci başlığı olan girişdə müəllif əsərin mövzusunun nədən ibarət olduğunu ana xətlərlə qeyd edərək izlədiyi metodologiyadan, qarşıya qoyulan suallardan bəhs edir. Daha sonra isə S.Şirazi və İbn Ərəbinin bu mövzuda olan əsas mülahizələrinin maddələr halında xülasəsi verilir. Girişin geri qalan qismində isə buna qədər bu mövzuda yazılmış əsərlərdən, mövzunun işlənildiyi doktorluq dissertasiyalarından, ortaya qoyulan yeniliklərdən bəhs edilərək, tədqiqat işində əsas alınan İbn Ərəbi və S.Şirazinin əsərlərinin adı qeyd edilir. Növbəti başlıqlarda kitabın əsas mövzusu olan kamil-insan konsepsiyasının əhəmiyyətindən bəhs edilərək insanı tanımağın nə kimi əhəmiyyətə malik olduğu, bununla tanrıtanıma, digər dini-etiqadi təməllər arasındakı əlaqə ortaya qoyulur. Daha sonra gələn başlıq isə bu və ya digər baxımdan insanı öyrənən elmlərdən, müxtəlif humanitar sahələr, fəlsəfə, irfan və s. söhbət açaraq bunların insanla əlaqəsini analiz edir. Birinci fəslin son iki başlığında nəzəri irfan, mütəaliyə fəlsəfəsi və onların baniləri olan İbn Ərəbi və S.Şirazidən bəhs edilir. Belə ki, birincidə kamil insan mövzusu nəzəri irfan və mütəaliyə fəlsəfəsi baxımından ələ alınaraq, bu ifadəni meydana gətirən insan və kamal anlayışları ayrı ayrılıqda maddələr halında təhlil olunur. İkincidə, yəni birinci fəslin son başlığında isə iki mütəfəkkir haqqında qısa məlumat verilərək onların intellektual kimlikləri təsvir olunur [Malikov, A.

(2016). Nazariyyeye ensane kamil ez didgahe erfan və falsafe. Markaz Beynalmilali Tarcome ve Neshr Al-mustafa, s.111-112].

İkinci fəsildən etibarən mövzunun dərindən analizinə başlanılır. “Kamil insan” konsepsiyasının mahiyyəti ilə bağlı olan ikinci fəsildə insanı tanımağın mümkünlüyü, kamil insanın tərifi və S.Şirazinin insanşünaslığa dair irəli sürdüyü prinsiplər kimi başlıqlar yer almışdır. İrfan və fəlsəfədə insanı tanımağın mümkünlüyü haqqında olan birinci başlıqda S.Şirazi və İbn Ərəbi nümunəsində fəlsəfi və irfani cəhətdən insanın həqiqətinin bilinib-bilinməyəcəyi və əgər bu bilik mümkündürsə onun çərçivəsi və hansı həddə mümkün olması araşdırılır, İbn Ərəbinin bu biliyi insanın tanrının təcəllisi olması baxımından mümkün hesab etdiyi halda Şirazinin bunu Tanrının sayəsində yəni insanın varlığı baxımından ona bağlı olması və ya varlığının sırf bağlılıq, ehtiyaclı olması nöqteyi-nəzərindən olması qeyd edilir. Bu başlığın iki alt başlığında da bu iki mütəfəkkirə görə biliyi mümkün hesab edilən insanın həqiqətinin mahiyyəti müzakirə edilir. Fəslin ikinci başlığında İbn Ərəbi və S.Şiraziyə görə kamil-insanın tərifi, İbn Ərəbiyə görə kamil-insanın xüsusiyyətləri (ontoloji və humanitar baxımdan) və S.Şirazinin “fəlsəfi antropologiya”ya dair irəli sürdüyü altı prinsip ələ alınır. Fəslin sonuncu başlığında isə Şirazi baxımından kamil insanın vəsfləri haqqında danışılır [Malikov, A. (2016). Nazariyyeye ensane kamil ez didgahe erfan və falsafe. Markaz Beynalmilali Tarcome ve Neshr Almustafa, s.113-178].

Üçüncü fəsildə, İbn Ərəbinin nəzəri irfanı və S.Şirazi fəlsəfəsi baxımından kamil insanın varlığı, ontoloji baxımdan təhlilinə həsr olunmuşdur. Burada ilk olaraq insanın özündə ehtiva etdiyi bütün varlıq aləminin mərtəbələri nəzərdən keçirilir. Fəslin geri qalan hissəsində əslində fəlsəfənin əsas problemlərindən biri olan nəfs-bədən probleminin işlənildiyini deyə bilərik. Varlıq aləmini meydana gətirən fərqli varlıq aləmlərini sadaladıqdan sonra mistik düşüncədə, xüsusilə, İbn Ərəbi düşüncəsindəki nəfs və bədən, ruh və cism anlayışları tədqiq olunur. Daha sonra bu anlayışlar mütəaliyə fəlsəfəsi prizmasından nəzərdən keçirilir. Burada dualist düşüncənin əksinə monist nəfs-bədən anlayışının hər iki mütəfəkkir baxımından ələ alınaraq nəfs və bədənin birliyi, insanın ruhani və maddi yönləri arasındakı münasibət və s. məsələlərə yer verilir. Növbəti başlıqda həm irfan, həm də mütəaliyə fəlsəfəsində insana aid edilən müxtəlif mərtəbə və məqamlar müzakirə olunur. Fəslin sonunda isə “mütəmadi yaratma” (xəlqul mudam) nəzəriyyəsi yunan fəlsəfəsi, əşəri kəlamı və İbn Ərəbi nəzəri irfanı aspektindən araşdırılır [Malikov, A. (2016). Nazariyyeye ensane kamil ez didgahe erfan və falsafe. Markaz Beynalmilali Tarcome ve Neshr Al-mustafa, s.179-247].

Kitabın son fəslində hər iki mütəfəkkirin kamil insan anlayışı ilə bağlı düşüncələrinin ümumi və geniş dəyərləndirilməsi təqdim edilir. “İbn Ərəbi və S.Şirazinin fikirlərinin müqayisəli təhlili” başlığı altında kamalın tərifi, insan üçün kamilliyin mənası və kamil insan mövzularından tutmuş nübuvvət və imamət məsələlərinə qədər bu kontekstə daxil olan bir çox problem maddələr halında əvvəlcə İbn Ərəbinin, sonra isə S.Şirazinin görüşləri verilməklə müqayisəli təhlil olunur, onların ortaq və fərqli cəhətləri vurğulanır. Bundan sonra əsərdə ələ alınan məsələlər xülasələndirilib əldə olunan nəticələrdən bəhs edilir. Burada da yenə İbn Ərəbinin və Şirazinin mövzu ilə bağlı yekun görüşləri, onların görüşləri arasındakı bənzər və fərqli tərəflər, fikirlərinin güclü və zəif tərəfləri, məsələyə yanaşmalarındakı metodoloji fərqlər və s. məsələlər aydınlaşdırılır.

Bütövlükdə kitab haqqında onu demək mümkündür ki, mövzunun dərindən və konteksti çərçivəsində hərtərəfli işlənməsindən əlavə, tərtibat və üslub baxımından da üstünlüklərə sahibdir. İlk növbədə əsərdə fəlsəfi-irfani bir problemin işlənilməsinə baxmayaraq kifayət qədər anlaşılan bir dildə qələmə alınmışdır. Fəsillərdə araşdırılan problemlər çoxlu başlıq və alt başlıqlara ayrılmışdır ki, bu da kitabın istifadəsini asanlaşdıran və oxucunun ondan daha səmərəli istifadəsini təmin edən özəllikdir. Bunlardan başqa, əsərin yazarı fikirlərini təhlil etdiyi müəlliflərin orijinal əsərlərindən müntəzəm, eyni zamanda qədərində, iqtibaslar gətirməklə həm oxucuya fikirləri araşdırılan şəxs tərəfindən məsələnin necə ortaya qoyulduğunu göstərmiş, həm də mövzu ətrafında irəli sürdüyü mülahizələri əsaslandırmaqla onların etibarlılığını artırmışdır.

Son olaraq onu deyə bilərik ki, əsər İbn Ərəbi və Sədrəddin Şirazi düşüncəsində kamil insan konsepsiyasını ələ almaqla, kiçik planda, onların mövzuyla bağlı anlayışlarını təsvir edir, böyük planda isə bu alimlərin örnəyində fəlsəfə və nəzəri irfan kontekstlərində problemin hansı formada başa düşüldüyünü müqayisəli şəkildə göstərmiş olur. Bu baxımdan, “*İrfan və fəlsəfə perspektivindən kamil insan*” kitabı fəlsəfə, irfan və ümumiyyətlə İslam intellektual düşüncəsi sahəsində araşdırma aparan tədqiqatçılar, eləcə də tələbələr üçün faydalı bir qaynaqdır.